# Turan hansı əsaslar üzərində qurulmalıdır?

**Şapur Qasimi**

(əvvəli ötən sayımızda)

***İlk öncə din haqqında K.Marksın bir cümləsini xatırlatmaq istərdim. K.Marks yazır ki, – «Din insanı idrakdan uzaqlaşdırıb uydurmaya aparır». Sonra isə gənc şair İbrahim Xudainin bütün dinlərin yalançı fəlsəfəsinin lap kökün, yəni dünyada hər şeyi Allahın yaradıb idarə etdiyinə rişxəndlə dediyi iki sətrini oxucuya təqdim etmək istəyirəm.***

**Allah bu dünyanı yaratdığıyçın,**
**Hələ də, gizlənir, utandığından.**

Ülviyyə xanım haqlı olaraq əvvəlcə yazır ki, – «1881-ci ildə (yəni, 139 il öncə) Azərbaycanın Şuşa şəhərində yaranan altı sinifli yeni tipli məktəb də belə təhsil ocaqlarından olmaqla yanaşı, maarifçilik dalğasının yaranmasında (yəni, cəhalətdən yaxa qurtarmaq cəhdinin yaranmasında - müəllif) rolu danılmaz idi. Həm də maarifçiliyin inkişaf yoluna qədəm qoyduğu o dövrdə dini təhsil sistemindən dünyəvi təhsil sisteminə keçid də güclənirdi. Xalq hürafat əngəllərinə əhəmiyyət vermədən, başqa xalqların dillərini də öyrənir, həmin dildə danışmağa, oxumağa cəhd göstərirdilər». Tamamilə doğrudur. Min illər öncə yaranan dinlər, şüur, elmi səviyyəsi heyvanlardan çox da fərqlənməyən vəhşi insnaların davranışının müəyyən sivil çərçivəyə salınıb saxlanılması baxımından müəyyən dövrlərdə mütərəqqi rol oynayıb. Lakin, dinin bununla yanaşı, həm bir ölkə dixilində, həm dövlətlər və millətlər arasında, kimlərinsə hakimiyyət əldə etməsi xatirinə saysız-hesabsız kütləvi qırğınlar törədilməsi, tarix boyu insanlara həqiqəti, reallığı öyrədən, başa salan, elm xadimlərini qətlə yetirməklə bəşəriyyətin inkişafını, xüsusilə insanın idrak və düşüncəsini, həqiqət olmayan yalanlar çərçivəsində dustaq edərək, ləngitməsi inkar edilməz faktdır.

***Bir vaxt Yer planetinin yastı formada olmaqla, nəhayətsiz dənizlərlə əhatə olunaraq, balıqların üstündə, öküzün buynuzunda, Anteyin çiynində qərar tutmasını dünyada hamı bir nəfər kimi (o cümlədən bütün dindarlar) qəbul edərək, Yerin dairəvi olub, öz oxu ətrafında fırlanmasını sübut edən, tibbi eksperimentlər aparmaq, meyidləri gizlin yararaq, xəstəliklərin, ölümün səbəblərini tapıb onun qarşısını almağa çalışan elm adamlarını tonqallarda yandırmaqla, dara çəkməklə, müxtəlif işkəncələrə məruz qoymaqla insanların elmi şüurunun, zəkasının inkişafına ən böyük əngəl, nağıllar üzərində qurulan dinlər və onun xadimləri olmayıbmı?***

İslam dininin yarandığı 1500 ilə yaxındır. Türk millətinin yaranması ilk türk dövlətinin yaranmasından daha qədim dövrlərə gedib çıxmasını nəzərə alsaq, türkün təkcə dövlətçilik tarixi 8 min ildən çoxdur. Məgər islam dini yaranana qədər, ərəb xilafətinin türk dövlətlərinin ərazisini işğal edənə qədər, 8 min ildən artıq bir dövrdə türk millətinin mənəvi dəyərləri olmayıbmı? Məgər islam yaranana qədər türk dövlətlərinin daimi müstəqil mövcudluğunu, düşmənləri üzərində daim qazandıqları qələbələri, türk millətinin əxlaqını, mədəniyyətini, mənəvi dəyərlərini islam dini müəyyən edirdimi? Yüzil bundan irəli, Osmanlı imperiyası, Qacar xanədanı başqa dövlətlərlə müqayisədə islamın onu elmi inkişafdan geri qoyub, zəifləməsi səbəbindən çökməyibmi? Nəhayət, bu gün fars şovinizmi islama inanmadığı, islama özü əməl etmədiyi halda, 50 milyon türkün İranda islam nağılı vasitəsilə milli azadlıq mübarizəsini parçalayaraq əsarətdə saxlamırmı? Hələ 500 il əvvəl, qatı dindar olan türk dahisi Məhəmməd Füzuli, – «Min dualər qıldım, xaliqin dərgahına, muradım hasil olmaz duadan, mən duanı neylərəm», – deyərək dinin xülya olduğunu etiraf edirsə, biz bu günkü elmi düşüncə səviyyəmizə rəğmən, dünyadakı 500 milyon türkün taleyini müəyyən etməli, onu əsirlikdən, başqa millətlərdən asıllıqdan qurtarmalı olan Turan dövlətini hansı hesabla Məhəmmədin nağılı olan islam dini əsasında qurmalıyıq. Hörmətli Ərdoğanın, Baxçalının islam dini daşıyıcısı olması, və ya İlham Əliyevin Şuşada məscidə girərkən ayaqqabını çıxarması, quranı öpüb gözünün üstündə qoyması onların şəxsi işi, hüququ olub, Turan dövlətinin dini əsaslar üzərində qurulması zərurəti anlamına gəlmir. Onların hərəsinin öz düşüncəsi, öz vəzifəsi, öz məqsədi və bunlardan irəli gələn hərəkətləri, davranışları var. Turan dövləti isə bütün türk millətinə məxsus olub ümumtürk taleyini həll etməli olan bir amildir və o ancaq ümumtürk məqsədlərin həlli çərçivəsində, türk MİLLİdəyərləri əsasında qurulmalıdır.




Müəllifin məqaləni sonuna yaxın yazdığı fikirləri isə çox vətənpərvər ritorikada səslənsə də müəmmalı və anlaşılmazdır. Şəxsən mən, Məşədi İbad demişkən, «Nadir tarixi yarıya qədər oxumuş olsam da» bu yazılanları başa düşə bilmədim.

Müəllif yazır; – «Yeni nəslin ziyalı, dövlət adamları Şuşanın sakral aurasında yetişdiriləcək. Bu məqamda mütləq və mütləq bu məktəbin müdavimləri arasına daxil olacaq fərdlərin soy kökü, əsli-nəsli, ailə-nəsil bağlantıları, daşıdıqları təfəkkür, şüuraltı yoxlanaraq, qanında zərərli, xain ünsürlər olmayan, o cümlədən erməni qanı daşımayan uşaqlar bu yetişdirilmə prossesinə daxil edilməlidir...» Yeni nəslimizin beynini «5-ci kolonun» öhdəsinə verə bilmərik. Yeni diriliş təmiz genetik kodlarla aparılmalıdır. Əlbəttə bu vacib missiyanı üzərinə götürəcək yeni maarifçi nəslin milli-mənəvi, dini dəyərlərlə zənginləşdirilməsi Türkiyənin üzərinə götürdüyü və Azərbaycanla birgə yürüdəcəyəi türk və islam coğrafiyasının bir-birinə, iç-içə keçərək bütövləşməsi prossesinin başarıyla nəticələnməsi, ərəsəyə gətirilməsi üçün vacib amildir. Türkiyə-Azərbaycan Turan uğrunda türk siyasi şüurunun daşıyıcılarını məhz Şuşada yetişdirəcək».

***Onun birinci cümləsini, ancaq belə başa düşmək olar ki, bundan sonra ziyalı, dövlət adamı olmaq hüququ ancaq «Şuşanın sakral aurasında yetişənlərə» məxsus olacaq. Azərbaycanın və ümumilikdə Turanın, eləcə də dünyanın başqa ölkələrində yetişən türk ziyalıların, ziyalı olmaq hüququndan və dövlət adamı olmaq hüququndan «məhrum edilməsi haqqında» qanun qəbul edilməlidir. Yəqin ki, müəllif bu qanunun layihəsini də bu günlərdə cəmiyyətə təqdim edəcək.***

Məgər Turan uğrunda şüurun daşıyıcıları mandarin, Şuşa isə subtropik zona olan Astaradırmı ki, onlar ancaq Şuşada yetişsinlər. Mən özüm heç vaxt Şuşanı görmədiyim halda 16-17 yaşımdan belə «Azərbaycanlı» ifadəsini millət anlamında, «Azərbaycan dili» ifadəsini dilimiz türk dili anlamında qəbul etməyib, «türkdilli xalqlar» deyilən insanların türk milləti olduğu iddiasında olduğuma görə hələ SSRİ dövründə, sonradan isə 1990-cı illərin «demokratları», hətta AXC-çilər tərəfindən vurulan «Pantürkist damğası» daşımışam.

Turan ifadəsi türk milli əraziləri anlamında bir çox yüzilliklər bundan əvvəl yaranmışdır. Turan dövlətinin yaranması zərurətini dərk edən siyasi şüurun yaranmasından artıq yüz ildən çox keçir. Turanın siyasi şüur daşıyıcılarının coğrafiyası isə təkcə Azərbaycanla məhdudlaşmayıb. Artıq Turanın yaradılması reallığa çevrilməkdə olduğu indiki dövrdən isə, dünyanın hər hansı bir nöqtəsində dünyaya gəlib, böyüməsindən asılı olmayaraq hər bir türk Turan siyasi şüurunun daşıyıcısına çevrilməlidir. Daha dəqiq desək bu bütün dünya türklərinin siyasi şüurunun NÜVƏSİNƏ çevrilməlidir. Bu vəzifənin öhdəsindən gəlmək üçün isə Şuşanın məktəbləri, hətta özü belə çox mikroskopik bir məkandır. Türkçülüyün, turançılığın övladlarımızın milli, siyasi şüurunun nüvəsinə, ayrılmaz tərkib hissəsinə çevrilməsi üçün ən əvvəl 1500 ildən bəri şüurumuza, adət-ənənəmizə, ölümüzə-dirimizə, dilimizə pərçim edilmiş hər cür dinin, o cümlədən islamın çıxarılıb, əvəzinə türk milli varlıq şüuru formalaşdırmaq üçün, ailədən, dünyanın hansı nöqtəsində məskunlaşmağımızdan asılı olmayaraq təhsildən, tutmuş hüzn və şənliklərimizə qədər, bizlərə hər an, hər söz və cümləmizdə, hər addımımızda TÜRK milli varlığımızı xatırladan SAKRAL AURA yaratmalıyıq.

İkincisi, bu məktəbin müdavimlərinin soykökü, əsli-nəsli, ailə-nəsil bağlantıları, daşıdıqları təfəkkürü, qanında zərərli, xain ünsürləri, damarında erməni qanı daşıdıqlarını hansı vasitə ilə ölçülüb, hansı meyarlarla qiymətləndirilməsi məsələsi də açıq və çox qaranlıq qalır. ***Belə ki, rəsmən nəsil şəcərəsinin qeydiyyatı aparılmadığından və «uşaq istehsalı prossesi» tamamilə məxfi aparıldığını, eləcə də müğənni Rəqsanə xanımın hətta televiziya ilə müraciət edib, uşağının atasının kim olduğunu tapıb ona deyənə mükafat verəcəyini vəd etdiyini, soykök məsələsinin müəllifin təklif etdiyi məzmunda həll etməyin mümkün ola biləcəyi imkansız görünür. O ki, qaldı qan məsələsinə, çox təəssüf ki, mövcud tibbi aparatlar ən azı yaxın gələcəkdə qan analizi (təhlili) zamanı qanın qrupu (I, II, III, IV), qanda şəkərin, xolesterinin, revmatizmanın və s. olduğundan başqa, xüsusilə insanların hansı millətə, genetik koda malik olduğunu təyin etmək qabiliyyətinə malik deyillər.*** Hətta belə bir cihaz və ya üsul tapılsa, belə, yenə də Azərbaycanın I və II Vətən müharibəsində Azərbaycana VƏTƏN deyib, onun torpaqlarının azadlığı uğrunda həyatlarını, sağlamlığını belə əsirgəməyən Mübariz İbrahimovların, Aqarunovların, ləzgi, rus, osetin, avar, tat və s. hətta anası erməni olub, ancaq ağır yaralar alandan sonra həkimlərə və ÖLÜMƏ təslim olan Ənvər Fərəc oğlu Dəstgüşədə kimi çoxlu saydaVƏTƏN OĞULLARININ genetik kodunu hansı kitaba, hansı cərgəyə yazaq? Burada yazılanlar Azərbaycanı birbaşa, 37-ci illərə, faşizmə, şovinizmə aparmırmı? Hər bir millətin, dövlətin, hətta fərdi şəxsin özünü qoruma mexanizmləri olmalıdır. Ancaq belə yox! Yəqin, bu barədə də müəllif ixtira etdiyi avadanlıq və üsullar barədə oxucuya məlumat verəcək.

Anası yəhudi olan, bizim millətin dahisidir deyib, dünyanın o başından, ABŞ-dan gətirib Bakıda, Fəxri Xiyabanda böyük hüzn və təntənə ilə dəfn etdiyimiz Lütfizadədən imtina edib İsrailə göndərəkmi?

***İşlədiyi dövrdə bir ədəd elmi əsasları olmayan, səthi dissertasiyanı, ən yüksək vəzifəli şəxslərin təpkilərinə, hətta ona verdikləri «İstiqlal» ordeninə görə belə, təsdiq etmədiyi səbəbindən tutduğu vəzifədən uzaqlaşdırılandan sonra, ölkədə yenidən orta məktəb səviyyəsi belə olmayan, «çox hörmətli» alimlərin yağışdan sonra göbələk kimi bitdiyi, Ali Attestasiya Komissiyasının sədri, anası erməni olan Azad Mirzəcanzadədən imtina edəkmi?***

*Turan ifadəsi türk milli əraziləri anlamında bir çox yüzilliklər bundan əvvəl yaranmışdır. Turan dövlətinin yaranması zərurətini dərk edən siyasi şüurun yaranmasından artıq yüz ildən çox keçir. Turanın siyasi şüur daşıyıcılarının coğrafiyası isə təkcə Azərbaycanla məhdudlaşmayıb. Artıq Turanın yaradılması reallığa çevrilməkdə olduğu indiki dövrdən isə, dünyanın hər hansı bir nöqtəsində dünyaya gəlib, böyüməsindən asılı olmayaraq hər bir türk Turan siyasi şüurunun daşıyıcısına çevrilməlidir. Daha dəqiq desək bu bütün dünya türklərinin siyasi şüurunun NÜVƏSİNƏ çevrilməlidir. Bu vəzifənin öhdəsindən gəlmək üçün isə Şuşanın məktəbləri, hətta özü belə çox mikroskopik bir məkandır*

(ardı gələn sayımızda)